BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2014

# FƏLSƏFƏ

UOT 1 (09) UOT 82-1

## EZOTERİK ƏSƏRLƏRİN FƏLSƏFİ MAHİYYƏTİ

**M.Ə.ABDULLAYEVA**
***Bakı Dövlət Universiteti***
***matanat.a@hotmail.com***

*Məqalədə deyilir ki, hər hansı dövrün fəlsəfəsini tədqiq etmək üçün həmin dövrün fəlsəfi poeziyasının araşdırılması, şərh edilməsi mühüm əhəmiyyət daşıyır. Fəlsəfi poeziya daşıdığı batini məna yükünə görə ezoterik poeziyadır. Poetik nümunələrdən əldə olunan fəlsəfi biliklər o qənaətə gəlməyə imkan verir ki, bədii düşüncə sahiblərinin yaratdıqları əsərlər fəlsəfi konsepsiyalar daşımaları baxımından çox dəyərli mənbədir. Ezoterik əsərlərin mahiyyətində İnsan-Kainat qarşılığı, vəhdəti və onun dərki problemi durur.*

**Açar sözlər**: ezoterik bilik, fəlsəfi poeziya, fəlsəfi konsepsiya

Ezoterik dünyagörüşün bədii forma içərisində fəlsəfi dərki onun əsas elementlərinin – simvolların və metaforaların sakral funksiyalarının, gizli semantik məzmunlarının üzə çıxarılması ilə mümkündür. Bədii formaya ən qədim yazı nümunələri - dini mətnlər, mistik-fəlsəfi traktatlar və nisbətən sonrakı dövrlərə aid edilən fəlsəfi poeziya nümunələri daxildir. Ən qədim dini mətnlərin dili kodlaşdırılmış şəkildədir, çünki «təfəkkürün arxaik metodu simvolikdir; daha sonrakı dövrlərdə şərtidir; baxmayaraq ki ən qədim dövrlərdə məcazi və alleqorikdir; heroqlifik, yaxud loqoqramikdir, axırıncısı ən çətin metoddur, çünki hər hərf Çin dilində olduğu kimi, bir sözü ehtiva edir» (1, 389). Loqoqramlardan ibarət yazı nümunələrinə Hermes Trismegist tərəfindən zümrüd plastina üzərinə yazılmış «Zümrüd Lövhə», Qədim Misirdə, həmçinin Qədim Tibetdə tapılmış «Ölülərin kitabı» adlanan himnlər və dini mətnlər toplusu, induizmin müqəddəs yazıları olan «Veda», «Aqama» və s. kimi qədim əsərlər aid edilir. Hind fəlsəfi mədəniyyətində sutralar da (şeir formasında yazılmış lakonik fəlsəfi aforizmlər) çox geniş yayılmışdır, burada da ezoterik biliklər təcəssümünü tapıb. «Veda» 100 min şeirdən və onlara əlavə olunmuş

mətnlərdən ibarətdir. Belə mətnlər ezoterik-fəlsəfi ədəbiyyatın ilkin nümunələri kimi dəyərləndirilir (2).

İlkin ezoterik biliklərə mifik şair Orfeyin adı ilə bağlanan orfizm (e.ə.VI əsr), Pifaqor məktəbinin gizli tərəfləri, Platonun və Aristotelin yalnız tələbələrinə ötürdükləri gizli biliklər də aid edilir. "Müasir insanlar Platonu heç də tanımırlar. Onlar Platon təlimini Yeni dövr filosoflarının rasional sistemlərinə köçürürlər, lakin Platon özü modernləşən qədim Yunanıstanın ənənəvi cəmiyyətinin misteriya və teologiyaya həsr olunmuş "katakombasının" nümayəndəsi idi" (3). İudaizmin və xristianlığın müqəddəs kitabları olan «Tövrat» və «Bibliya»da da insan, kainat, Allah haqqında ezoterik biliklər simvolik və alleqorik formada çatdırılır.

İslam Şərqində ən dəyərli fəlsəfi yüklü nəzm əsəri müdrikliyin zirvəsi olan Qurani-Kərimdir ki, yüksək poetik dildə təqdim olunub. "Bütün vaxtlarda hər bir dində biliklərin ezoterik, fəlsəfi hissəsi ilə bərabər kütlələr üçün ekzoterik forması olub. Təbii ki, hər kəs dərin ezoterik bilikləri başa düşə bilməzdi. Ona görə həmişə iki təlim verilir – biri idrak xüsusiyyətləri daha yüksək olanlar üçün, digəri isə kütlələr üçün" (2). Bu fikir bədii-poetik söz sənətinə də şamil edilir.

Türk etnik mədəniyyətində fəlsəfi düşüncə və dünyagörüşün şeirdə ilk rüşeymləri mərasim nəğmələrində, müxtəlif deyimlərdə, bayatılarda görünür. Folklor nümunələri ilə bərabər yazılı şeir abidələrində – «Kitabi-Dədə Qorqud», «Orxon-Yenisey abidələri», Mikail Baştu ibn Şəms Təbirin (835-900) «Şan qızı dastanı», Yusif Balasaqunlunun (XI əsr) «Qutadqu bilik» əsərlərində və s.-də fəlsəfi düşüncə nəzm formasında təqdim olunub. "Hər bir bölgədə, etnik mədəni arealda bədii təfəkkürün səviyyəsi baxımından poetik forma daha dəyərli və əhəmiyyətli olub (4). Poetik forma o zaman dəyərlidir ki, içərisində insanı düşündürən, bütün zamanlarda aktual olan həqiqətlər, fəlsəfi yük olsun. Hər hansı dövrün fəlsəfəsini tədqiq etmək üçün fəlsəfi poeziyanın bütün etno-mədəni arealların, o cümlədən, «Azərbaycanın fəlsəfə tarixinin tədqiqi zamanı fəlsəfə tarixinin təzahür forması kimi» (5, 42) araşdırılması əhəmiyyət kəsb edir. Bu həm Qərb poeziyasına (Petrarka, Novalis, Dante, Höte və başqaları), həm də Şərq poeziyasına (təsəvvüf şairlərinin əsərləri) aiddir. Tarixin bütün dövrlərində gözəl fikir – fəlsəfi yüklü müdrik söz gözəl qəlibdə – poetik formada verilib, çünki "poeziya fikri insana bilavasitə çatdırmaq üçün çox əlverişli" sənət növü idi (6, 156). Ona görə də poetik vasitələr – rəmzlər, metaforalar, alleqoriyalar fəlsəfi poeziyanın əsas ünsürləri olub. Belə ünsürlərin vasitəsilə poetik nümunələrdən alınan fəlsəfi biliklər o qənaətə gəlməyə imkan verir ki, «bədii söz sənətkarlarının əsərlərində əhəmiyyətinə görə dahi filosofların konsepsiyaları ilə müqayisə oluna bilən bütöv bir fəlsəfi sistem ifadə olunub» (4).

İnsan və Tanrı münasibətləri və bununla bağlı bütün estetik, psixoloji, emosional kateqoriyalar və keyfiyyətlər poeziyada rəmzlərlə verilib. Bu baxımdan fəlsəfi poeziya bir «güzgü» olaraq Tanrının həyatda, təbiətdə «görünən» və

«görünməyən» emanasiyalarını, hiss olunan və olunmayan keyfiyyətlərini özündə əks etdirən qüdrətli bədii silahdır, - desək, səhv etmərik. Şərq müdriklik rəmzi hesab olunur və Şərqin görkəmli söz ustadları belə bədii silahdan məharətlə istifadə edərək həyata baxışlarını, İnsan və Kainat haqqında düşüncələrini və biliklərini poetik formada ifadə ediblər. «Orta əsrlərdən fəlsəfi poeziya, başqa sözlərlə, poetik formalara girmiş fəlsəfə, bir növ, ictimai şüurun qadağan edilmiş incəsənət növlərini və elmi, fəlsəfəni özündə təcəssüm etdirirdi. Görünür, buna görədir ki, fəlsəfi poeziya nümunələri bizi misraların qəlbi riqqətə gətirən musiqisi, obrazların parlaqlığı, rəngarəngliyi, əyaniliyi və onların arxasında gizlənən dərin düşüncələrin, mənaların zənginliyi ilə heyran edir. İstər professional fəlsəfənin, istərsə də dini – mistik-fəlsəfi cərəyanların təsirinin hiss edildiyi həmin əsərlərdə dövrün dünyaanlamı və dünyaduyumu öz əksini tapmışdır» (7, 137). Həqiqətən, özündə fəlsəfi təfəkkürlə estetik gözəlliyi ahəngdar surətdə birləşdirən sənət fəlsəfi poeziya səviyyəsinə yüksələ bilər. Fəl.ü.e.d. Z.Quluzadə «Şərq mədəniyyəti tarixinin nəzəri problemləri və nizamişünaslıq» əsərində orta əsr Şərq fəlsəfəsində metod problemindən danışarkən fəlsəfi poeziyada insan və dünya qarşılıqlı münasibətlərinin zənginliyi və rəngarəngliyi məsələlərin məhz ezoterik formada təbliğ edildiyini söyləyir. O yazır: «Fəlsəfi poeziyanın əsas problemləri dünyanı panteist dərketmə anlarının, özünü məhəbbət və idrak vasitəsilə təkmilləşdirmənin ezoterik formada təbliğidir; cəmiyyətin sosial kamilliyinin, onun utopik təsəvvürlərinin fərdlərin, xüsusilə də, hakim şəxslərin mənəvi-intellektual kamilliyi ilə bağlılığının göstərilməsidir; ayrı-ayrı fəlsəfi təlimlərin və peripatetik fəlsəfənin yüksək poetik formada təbliğ edilməsidir. Fəlsəfi poeziya oxuculara cahilliklərini (mənəvi və intellektual cahillik nəzərdə tutulur) dəfetmə yolu ilə özlərinin insan olaraq əzəmətini görməyə, özlərinin xeyirə və varlığın gözəlliyinə aidiyyətlərini, kainatla və vahid olanla – Allahla birliyini görməyə, həmçinin, dünyəvi zorakılıqla mübarizə tələbləri çağırışı ilə xüsusilə fərqlənir» (5, 65). Düşünürük ki, poeziyanın əsas problemi kimi dünyanı panteist dərketmə anları ilə bərabər, ümumiyyətlə, mistik dərketmə anlarının ezoterik formada təbliğindən danışmaq olar.

Fəlsəfi poeziya insanları hikmət yoluna, Tanrı sevgisinə, eşq yolçuluğuna, irfani biliklərə yiyələnməyə dəvət edir və belə tendensiya onun ana xəttini təşkil edir. Nəsimi Allahın sirrinin ancaq haqq aşiqinə məlum olduğunu deməklə yalnız eşqlə həqiqi biliklərə çatmağın mümkünlüyünü vurğulayır:

*Avara tək nə gəzirsən, ey özündən bixəbər,*
*Gəl həqin sirrini istə aşiqi-biçarədən* (8, 161).

Füzuli yazır:"Hər kim sədaqətlə Tanrıya itaət edərsə, Tanrıdan başqa digər şeylərin hamısı ona itaət edər… Hər kim Yaradıcıya itaət edərsə, yaranmışlar da ona itaət edər. O cümlədən, peyğəmbərlik nişanələrindən biri də qeybə aid (gizli) şeyləri bilməkdən ibarətdir. Bu xüsusiyyət ruhani bir işdir. Aləmin özü və onun hadisələrinin qeyd siyahısında ümumi surətləri vardır ki, bunlara Əflatuna görə, Əflatun qəlibləri (müsüli-əflatuniyyə), kəşf əhlinə görə,

cəbərut (qüdrət) aləmi və şəriət əhlinə görə, lövhi-məhfuz (hifz olunan lövhə) deyilir. Bu surətlər heç vaxt dəyişilmir və onların timsalı şəhadət aləminə (dünyaya) göndərilir. Bunlar doğru və ya xəta (nadürüst) işlərin mənşəyidir; çünki ağlın şeylərə aid və onların əmələ gəlməsindən əvvəlki təsəvvürə əgər o uyğundursa, belə bir təsəvvür düzgündür; əks təqdirdə isə düzgün deyildir. Əgər ruh bədəndən ayrılmaqdan qabaq cismani pərdələr (maneələr) və bədənə aid hadisələrdən təcrid edilərək, həmin siyahıdakıları qəbul edərsə, o siyahıdakı əzəli və əbədi şeylər onun üzərində nəqş edilər və belə bir rütbəyə malik olan adam keçmişdən və gələcəkdən xəbər verər…" (9, 136). Ruhunu tanıyan (cismani pərdələr və bədənə aid hadisələrdən təcrid edilmiş) insanın kainatın sirlərinə vaqif olduğunu söyləyən Füzuli hikmət rəmzlərinə - gizli biliklərə sahib olma işini insanın zahiri həyatda əxlaqi-etik tərbiyəsi ilə bağlayır:

*Qabili-feyzi-rümuzi-hikmət olmaz hər kişi.*
*Hər kimin feli nəqizi-qövlüdür, məzlum olur.*
*Pərdeyi-təşkikdir bu zülməti-qeydi-həyat,*
*Pərdə rəf olduqda halı hər kimin məlum olur* (10, 242).

*İzahı*: Hər kişi hikmət rəmzlərinin ləzzətini duymağa qabil deyil. Hər kimin işi ziddiyyətli (yalan) sözlər (vədlər) verməkdir, o, məzlum olur. Şəkk pərdəsi həyat əsarətinin zülmətidir (şəkk gətirənlər ilahi nuru duymaqdan məhrumdurlar). Pərdə aradan qaldırıldıqda hamının halı məlum olur.

Sakral məna daşıyan əsərlər yazıldığı dövrün insanları tərəfindən anlaşılmırdısa, əsrlər keçdikdən sonra mistik təlimlərdən xəbərsiz oxuculara necə də qəribə görünə bilər?! Rəmzlərin hikmətinə bələd olub cahanı, kainatı təhqiq edə bilən insan haqqında Füzuli deyir:

*Əhli-irfandır cahan keyfiyyətin təhqiq edən*
*Kim, nəşatından bulur yüz ğəm, ğəmindən yüz nəşat* (11, 187).

İbn-Ərəbi deyib ki, filosof, yaxud ilahiyyatçı, eynilə şair, ya yazıçı, ya da adi çəkməçi gizli (ezoterik) biliklərə yiyələnə bilər. Bu cür insanlar adi insanların cərgəsindən deyillər. Gizli sirlərə yiyələnmiş Nizami özünün başqalarından fərqləndiyini deyir:"*Ölü bir şəxsəm, ancaq mərdanə gedirəm, // Bu (dirilər) karvaniylə gedirəm, amma bu karvandan deyiləm"* (12, 45).

Bunu söyləmək üçün insan böyük daxili metamorfoza keçərək surət aləmi üçün «ölüb» yeni keyfiyyətdə doğulmalıdır. «Bu karvandan olmayanlar» həyatlarını və bütün fəaliyyətlərini təbiətin və insanın gizli qüvvələrini tədqiq və təhqiq etmək, belə qüvvələrin yönəldiyi Allah ideyasına sadiq qalmaq və Onun sevgisinin cazibəsində yaşamaq yolunu seçirlər. Adətən, belə insanlar istedad sahibləri olur, sənətin, incəsənətin bu və ya digər sahəsində bacarıqlarını realizə edirlər. N.İ.Priqarina yazır: «Şərq sənətkarı varlığın vahidliyini, onun başlanğıc səbəb və nəticələrinin qırılmazlığını və uyğun olaraq, özünün yaradıcılığının ali mənşəyini kəskin hiss edir. O, öz səyi ilə yaratdıqlarında, öz qələmindən, fırçasından çıxanlarda İlahi nur görür. Onun üçün sənət əsəri həmişə Haqqdan gələn vəhy, sənətkarın istedadı isə İlahi verginin nəticəsidir» (13, 4). «İlahi nur» ifadəsini ilahi enerji, ilahi biliklər mənasında anlamaq

düzgün olar. Belə biliklər daşıyan əsərlərdə (nəsr, yaxud nəzm formasında yazılmış mətnlərdə) ezoterik mahiyyət - əsas ideya ümumi məna formasında yox, bədii obrazlar formasında çatdırılır. Obraz özünün metaforik qəlibində varlığın həqiqətinin dərk olunmasında başlıca üsul kimi çıxış edir. Bədii ədəbiyyatda metafora, alleqoriya adlandırılan belə sistem «yol verilməz» informasiyaların bizim şüurumuz tərəfindən dərk olunmasına kömək edən vasitədən başqa bir şey deyil. Bədii formanın, ezoterik mahiyyətli mətnin fəlsəfi dərki məhz onun əsas elementlərinin – metaforaların sakral mahiyyətlərinin, koqnitiv funksiyalarının, gizli semantik məzmunların üzə çıxarılması ilə mümkündür. "Ezoterik mətndə metaforanın funksional xüsusiyyətlərindən biri onun yalnız bir çox metafiziki məsələlərin sirr pərdəsini açmaq deyil, həm də həqiqəti gizlətməkdir. Metaforanın kodlaşdırma keyfiyyəti imkan verir ki, müəyyən inkişaf mərhələsində dayanan cəmiyyətin qəbul etməyə hələ hazır olmadığı biliklər açılmasın, lakin onlara işarə edilsin (14). Ona görə də deyə bilərik ki, təbiətdəki ahəngdarlıqla mənəviyyat qanunlarının vahidliyini metaforik şəkildə, rəmzi dildə nəql edən sənətkarlar ezoterik ədəbiyyatın ən qiymətli nümunələrini yaratmışlar.

Ezoterik düşüncə sahiblərinə görə, fikirdə yaranan hər bir şey maddi dünya ilə bağlıdır, ruhani aləmə aid olanlarsa ürəkdə yaranır. "*Fikir o şeylərə yol tapır ki, // O, göz ilə görünsün. // Xudanı fikirdə axtarmaq yaramaz, // Fikirdən yaranan hər nə varsa, divdir. // Ürəkdə olan hər bir fikir // Hər yaradılmışın bəyəndiyi xəyal olar. // Fikirdə yeri olmayan hər şey // Allaha doğru yol göstərir. // Bu yolda qafil olmaq yaramaz, // Çünki (qəflət) bulud kimi ayı səndən gizlədər"* (12, 500). Fridrix Nitşe aforizmlərindən birində ağılla ürəyin tənasübünü eyni yanaşma ilə açıqlayır. O yazır: «Ürək bağlı olanda ağıl azaddır. Ürəyi qandallayıb həbsdə saxlayanda ağıl geniş azadlıq əldə edir» (15, 84). Müdriklər deyirlər ki, bütün kainat kosmik kod vasitəsilə yazılmış məlumatdır, onların istinad mənbəyi isə Qurandır. Qurana görə, varlıq aləmində görünən hər bir şey həyatın maddi şəklinin arxasında gizlənmiş batini mənanın açarı olan işarələr – ayətlərdir. «Göylərdə və yerdə (Allahın birliyini sübut edən) neçə-neçə əlamətlər, nişanələr vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər (onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında düşünməzlər)» (Quran 12:105). Nizami belə deyir:"*Aydan balığadək görünən hər bir varlıq//İlahi xəzinənin başına vurulmuş bir tilsimdir. //Bağlı tilsimi zəhmətlə tapa bilərsən, // Onu sındırandan sonra altından xəzinə taparsan"* (18, 28). Ayətləri anlamaq üçün insan ruhani təkamül yolu keçməli, yüksək mənəvi-əxlaqi xüsusiyyətlər qazanaraq batini saflıq əldə etməlidir. Belə insan maddi həyatın hər bir elementini və fraqmentini – insanları, hadisələri, situasiyaları, canlı və cansız aləmi, hətta bütün kainatı kod kimi qəbul edə bilər. Belə insanlar üçün surət aləmi məna aləminin şifrəsi kimi görünür. Füzuli deyir:

*Heç zaman surəti məna zənn etmə, Çalışma həqiqət rəmzini kəşfə,*
*Surət bir dəlildir ancaq mənaya. Bəhsilə açılmaz böylə müəmma*

(19,182).

«Dionisiy Areopaqit yazır: «Bizim ağlımız səmavi mərhələlərin yaxınlığına və sezilməsinə yalnız ona məxsus maddi rəhbərliyin vasitəsilə, yəni görünən gözəllikləri görünməyən əzəmətin izləri kimi qəbul etməklə çata bilər» (11, 25). İsveçrəli alim, teosof-mistik, Peterburq Elmlər Akademiyasının fəxri üzvü Emanuel Svedenborq (1688-1772) fiziki aləmi ruhani aləmin simvolu adlandırırdı. Orta əsr Qərb teosofunun söylədiyi bu fikri ondan əvvəl Şərq müdrikləri söyləmişlər. Svedenborq dünyanın mənəvi-əxlaqi mənasını şərh etməyi özünün vəzifəsi sayırdı. Amerika filosofu Ralf Uoldo Emerson (1803-1882) Svedenborq haqqında araşdırmasında belə yazır: «Svedenborq təbiətdəki ahəngdarlığa əsaslı, zərif və geniş baxışın üzərinə hüdudsuz və əhatəli formada mənəviyyat qanunlarının dərk olunmasını əlavə edirdi. Ancaq obrazlığa meylliyi nəticəsində o, hər şeyi əlahiddə yox, şəkillərdə görürdü, söhbətlərdə eşidirdi. Hər dəfə bu qanunlardan ağıllı tərzdə danışmaq istəyəndə nə isə bir şey onun demək istədiyini rəvayət formasında, metaforik şəkildə deməyə məcbur edirdi» (21, 79).

Bu baxımdan deyə bilərik ki, təbiətdəki ahəngdarlıqla mənəviyyat qanunlarının vahidliyini metaforik şəkildə, rəmzi dildə nəql edən sənətkarlar ezoterik ədəbiyyatın ən qiymətli nümunələrini – şedervlərini yaratmışlar. «Buna görə də təəccüblü deyil ki, mistik yaşantılar çox vaxt poetik formaya salınmış olur» (22, 170). İlk baxışda adi sözlərdən ibarət metaforalar, əslində, dərin, çox zaman dərk edilməsi mümkün olmayan mistik sirr, gizli informasiya daşıyır. Belə informasiyalar adi düşüncə yolu ilə yox, irrasional idrak vasitəsilə anlaşılır. İnsanın irrasional idrak prosesi, “Allahı dərketməsi ağıldan”kənar”dır, yəni ağılla yox, mistik intuisiya ilə mümkündür” (16, 240). Nəsimi deyir:

*Bilinməz ağzının sirri ağılla*
*Xəbər verdi bunu bir mötəbər ər* (8, 409).

Əfsunkar sözləri, sakral bilikləri yalnız eşidə bilən, dərk edə bilən insana söyləmək lazımdır. “Belə əsərlərdə qoyulmuş ideyanın, məqsədin məğzinin açılması, yaxud da əksinə, nəzərdə tutulmuş ideyadan uzaqlaşma həmin əsərləri nə cür mənəviyyatlı və hansı dünyagörüşlü insanın şərh etməsindən asılıdır (13, 33). Ruhani inkişaf keçməyən insan bakirə sözün, yəni heç kəsin bilmədiyi ruhani sirlərin, ezoterik biliklərin metaforik örtüyünü qaldırıb altındakı mənanı üzə çıxara bilməz. «Həq dininin elm gövhərləri alleqoriya sapına keçirilib və sirr mücrüsündə gizlədilib, onlara yalnız saf olanlar toxuna bilər» (17, 238).

Ezoterik mahiyyətli əsərlərin (nəsr, yaxud da nəzm əsərlərinin) fəlsəfi mahiyyətini insanın və dünyanın mistik-fəlsəfi dərki təşkil edır. Belə dərk, mütəfəkkirlərə görə, insanın nəfsinin arıdılması yolu ilə, mənəvi-ruhi təkamülü illə birbaşa bağlıdır.

## ƏDƏBİYYAT


1. Блаватская Е.П. Тайная доктрина. Том II. М.: Эксмо-Пресс, 2001,942 с.
2. www.taynovedenie.ru Эзотерический анализ мировых религий
3. Вахидов Р. Платон как метафизик (образ Платона у Рене Генон). nevmenand.net
4. Кули-заде З. Теоретические проблемы истории культуры Востока и низамиведение. www.philaw-az.Org
5. Кули-заде З. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.), ч. II, Баку: Текнур, 2009, 285s.
6. Xəlilov S. Fəlsəfə: tarix və müasirlik (Fəlsəfi komporativistika). Bakı: Azərbaycan Universiteti, 2006, 418 s.
7. Hacıyeva A. Hermenevtika Şərqdə. Bakı: Adiloğlu, 2006, 207 s.
8. Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, 438 s.
9. Füzuli. Əsərləri: 5 cilddə,Vc. Bakı: Azərb. SSR EA, 1985, 214 s.
10. Azərbaycan klassik ədəbiyyatı kitabxanası: 20 cilddə, VII c. Məhəmməd Füzuli. Bakı: Elm, 1986, 486 s.
11. Füzuli. Əsərləri: 5 cilddə, I c. Bakı: Azərb. SSR EA, 1958, 465 s.
12. Nizami Gəncəvi. İsgəndərnamə (Filoloji tərcümə). Bakı: Elm, 1983, 622 s.
13. Пригарина Н.И.Введение // Сад одного цветка. М.: Наука, 1991, с.3-6.
14. Кузьминская С.И. Особенности функционирования метафоры в современном эзотерическом тексте. grani.agni-age/net
15. Ницше Ф. По ту сторону добра и зла. М.: Олма-Пресс, 2001, 383 с.
16. Азимов К. Проблема человека в религиозно-философских доктринах зороастризма и ислама. Баку: Леттерпресс, 2009, 304 с.
17. Бертельс А.Е. Насир-и Хосров и исмаилизм. М.: Восточная литература, 1959, 288 с.
18. Nizami. Xosrov və Şirin (Filoloji tərcümə). Bakı: Elm, 1983, 292 s.
19. Füzuli. Əsərləri: 5 cilddə, IVc. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1961, 391 s.
20. Bünyadzadə K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk. Bakı: Nurlan, 2006, 242 s.
21. Эмерсон Р.У.Нравственная философия, II т.С.-П.: Ретгер, 1868, 230 с.
22. Кныш.А.Д.Мусульманский мистицизм. М.-С.-П.: Диля, 2004, 453 с.


## ФИЛОСОФСКАЯ СУЩНОСТЬ ЭЗОТЕРИЧЕСКОЙ ПОЭЗИИ


**М.А.АБДУЛЛАЕВА**


## РЕЗЮМЕ


В статье отмечается важность исследования философской поэзии в системе философской мысли эпохи. Знания, полученные при исследовании эзотерического пласта философской поэзии, позволяют сделать вывод о том, что произведения мастеров художественного слова содержат философские концепции. Основной задачей эзотерической поэзии является проблема достижения человеком духовного и физического совершенства, гармонии со Вселенной.



**Ключевые слова:** эзотерические знания, философская поэзия, философская концепция

# PHILOSOPHICAL ESSENCE OF ESOTERIC POETRY

**M.A.ABDULLAYEVA**

**SUMMARY**

The article highlights the importance of the research of philosophical poetry in the system of the philosophical thought of the era. The knowledge obtained during the study of esoteric layer of the poetry shows that these works contain whole philosophical concepts. The basic task of esoteric poetry is the problem of achievement of the mental and physical perfection, harmony of the person with the Universe.

**Key words**: esoteric knowledge, philosophical poetry, philosophical concepts